**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Шукуфа Иншаллах гызы Ханкишиева**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ У ПОДРОСТКОВ

6107.01 – Общая психология

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку – 2014**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ŞÜKUFƏ İNŞALLAH QIZI XANKIŞIYEVA**

# YENİYETMƏLƏRDƏ İDRAK FƏALLIĞININ İNKİŞAFININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

6107.01 – Ümumi psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2014**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, psixologiya üzrə elmlər doktoru, professor **Bəxtiyar Həmzə oğlu Əliyev**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru **İsfəndiyar Məmmədhüseyn oğlu Novruzlu**

psixologiya üzrə fəlsəfə doktoru **Ruhəngiz Mehman qızı Qarayeva**

Aparıcı təşkilat: **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrası**

Müdafiə "_13__" "___12______" 2014-cü ildə saat "___" da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2014 - cü ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi — psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

Tiraj 100; Sifariş N 877
“MBM” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Müasir şəraitdə şəxsiyyətin ümumi fəallıq səviyyəsinin artırılması cəmiyyətin sürətli inkişafı fonunda günün başlıca tələblərindən birinə çevrilmişdir. İnsanın fəallıq səviyyəsinin yüksəldilməsində bir sıra amillər aparıcı rola malik olsa da idrak fəallığı bu prosesdə özünəməxsus yer tutur.

Problemə həsr olunmuş tədqiqatlar göstərir ki, idrak fəallığının artırılması şəxsiyyətin standart olmayan situasiyalarda qarşıya çıxan maneələrin intensiv çəkildə aradan qaldırılmasında, insanın gerçəkliyi, özünü və müxtəlif situasiyaları hərtərəfli dərketməsində, uğurlu fəaliyyət üçün vacib olan vərdişlərin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Bununla yanaşı idrak fəallığı özündə diqqətin intensivliyini, hərəkətə hazırlığı, dərketmə marağının və s. kimi elementləri də ehtiva edir ki, bu da yeniyetmələrdə bu prosesın adekvat istiqamətləndirilməsinə, onların gələcək həyat perspektivlərini düzgün dərk etməsinə və həyat yolunu müəyyənləşdirməsinə zəmin formalaşdırır. Bu baxımdan mövzu olduqca aktualdır.

İnsan fəallığının psixoloji məsələlərinin tədqiqinə həsr edilmiş elmi araşdırmalarda intellektual maneələrin dəf edilməsi yollarının müəyyənləşdirilməsinə daha çox diqqət yetirilmişdir. Fəaliyyətdə intellektual maneə həm mürəkkəb məntiqi məsələlərin həllində, həm də dərin təxəyyül prosesləri tələb edən yaradıcı sahədə təzahür edir. Elmi-texniki tərəqqi şəraitində insan zəkası üçün belə maneələrin olması onun sosial, ictimai və iqtisadi sahələrdə sürətlə dəyişən şəraitə uyğunlaşmasını və səmərəli fəaliyyətini xeyli dərəcədə çətinləşdirir.

İntellektual maneələrin dəf edilməsi - idrakın fəallaşması, problem-situasiyaları rasional və uğurlu həlli sayəsində mümkün olur.

Qəbul edilmiş kurikulum standartları hər bir fənn üzrə şagirdlərin müvafiq biliklərlə yanaşı, bacarıqlara da yiyələnmələrini tələb edir. Bunun üçün şagirdlərdə tənqidi təfəkkürün, çevik düşüncənin və təlim motivasiyasının formalaşdırılmasına yardımçı olan idrak fəallığının artırılması zəruridir.

Nəzərə almaq lazımdır ki, idrak fəallığının dinamikliyi və məzmunu həm də şagirdlərin yaş və fərdi-psixoloji xusiyyətləri ilə də müəyyənləşir. Bu yaş dövründə idrak fəallığı özünəməxsus xüsusiyyətlərə malik olur. Ona görə də müəllimlər idrakın strukturu, xüsusiyyətləri, şagirdlərin maraqları, onların fəallaşdırılması yolları haqqında nəzəri və praktik hazırlığa malik olmalıdırlar. Bu baxımdan yeniyetmələrdə idrak fəallığının düzgün istiqamətləndirilməsi, şəxsiyyət böhranını zəiflədir, diqqəti fəaliyyətdə uğurlu nəticələrin əldə edilməsinə fokuslaşdırır, yeniyetmələrin özünü adekvat təsdiqinə zəmin yaradır.

İdrak fəallığının artırılması yeniyetmələrə konstruktiv qaydada hərəkət etmək, həyat strategiyasını dərketmə fəallığına uyğun qurmaq, zəruri davranış taktikası seçmək, müəllimlərlə, həmyaşıdlarla bərabərhüquqlu qarşılıqlı münasibətlərə girərək əməkdaşlıq təcrübəsi əldə etmək, bu yolla demokratikləşən və humanistləşən təhsilin subyektinə çevrilmək imkanı verir. Bütün bunları nəzərə alaraq "Yeniyetmələrdə idrak fəallığının inkişafının psixoloji xüsusiyyətləri" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Psixologiyada idrak proseslərinin və yeniyetməlik yaş dövründə onun fəallaşdırılması problemlərinin öyrənilməsinə fundamental tədqiqatlar həsr olunmuşdur (Q.Helmhols, V.Vundt, Q.Qefdinq, T.Titçener,U.Ceyms, S.Xoll, C.Dyü, K.Koffka, E.Max, Q.Müller, G.Ebbinhauz, M.Vertheymer, E.Tolmen, E.Torndayk, C.Bruner, J.Piaje, L.S.Vıqotski, S.L.Rubinşteyn, B.H.Əliyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, O.K.Tixomirov, R.Anderson, A.Luriya, F.İbrahimbəyov, T.Ribo, C.Blum, S.L.Rubinşteyn, Ç.Spirmen, A.Bandura, H.Ayzenk, C.Rotter, A.Freyd, A.Adler və b.). Bu tədqiqatlarda yeniyetməlik yaş dövrü və koqnitiv inkişaf fonunda idrak fəallığı tədqiq edilmişdir.

Bununla yanaşı müxtəlif tədqiqatlarda idrak fəallığının fərdi-psixoloji xüsusiyyətlər, psixikanın sağlamlıq vəziyyəti və davranışla əlaqəsi axtarılır (A.Lazurski, B.H.Əliyev, V.N. Drujinin, N.S.Leytes, V.İ.Rojdestvenskaya, T.V.Kornilova, E.L.Qriqorenko, S.D.Smirnov, B.Q.Rebzuyev, A.A.Solovyova və b.).

Bir çox tədqiqatçılar, o cümlədən B.H.Əliyev, M.C.Məhərrəmov,Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.Ə.Qədirov, M.Ə.Həmzəyev, Q.E.Əzimov, R.İ.Əliyev, D.B.Elkonin, C.Bruner, J.Piaje, B.Q.Ananyev, P.Y.Qalperin və b. yeniyetmələrdə idrak fəalliyyətinin inkişaf mərhələlərini, idrak fəallığını hərəkətə gətirən amilləri və motivasiya imkanlarını aydınlaşdırmışlar. Lakin bu və ya digər tədqiqatlarda konkret olaraq idrak fəallığı ilə bağlı psixoloji məsələlərin bütünlüklə həll olunduğunu söyləmək olmaz. Bu baxımdan da mövzu olduqca aktualdır.

**Tədqiqatın obyekti-** V-IX siniflərdə təhsil alan yeniyetmələrdə idrak fəallığı.

**Tədqiqatın predmetini** yeniyetmələrdə idrak fəallığının və intellektual maneələrin aradan qaldırılmasının psixoloji mexanizmlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatin məqsədi** fəaliyyət prosesində yeniyetmələrin idrak fəallığının xüsusiyyətlərini öyrənmək və ona təsir edən amilləri müəyyənləşdirməklə idrak fəallığının məqsədyönlü yüksəldilməsinin yol və vasitələrini göstərməkdir.

**Tədqiqatın fərziyyəsi.**Yeniyetmələrdə sistemli təlim motivləri və maraqların inkişafı intellektual imkanların aktuallaşaraq gerçəkləşdirilməsini şərtləndirərək onların idrak fəallığının səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Əsas fərziyyəyə uyğun olaraq iki fərziyyə də götürülmüşdür:

1.Yeniyetmələrin idrak fəallığının təzahürü ayrı-ayrı fənlərə münasibətin xarakteri, fərdi-psixoloji xüsusiyyətlərin nəzərə alınması və inkişafetdirici təlim-tərbiyə mühitinin yaradılması ilə şərtlənir.

2.Yeniyetmələrin idrak fəallığının təmin olunması onların yaradıcı imkanlarının gerçəkləşməsi üçün ən səmərəli yoldur.

**Tədqiqatın vəzifələri.** Tədqiqatda qarşıya qoyulmuş məqsədə nail olmaq üçün bir sıra vəzifələr müəyyən edilmişdir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İdrak fəallığı haqqında psixoloji mənbələrin təhlili və nəzəri məlumatların ümumiləşdirilməsi;

2.Yeniyetməlik dövründə idrak fəallığını şərtləndirən amillərin sistemləşdirilməsi;

3.Yeniyetmələrdə idrak fəallığının dinamik inkişaf modelinin işlənilməsi;

4.Yeniyetmələrin idrak fəallığının motivasiyasının öyrənilməsi;

5. Yeniyetmələrin maraqları və idrak fəallığı arasında qarşılıqlı əlaqənin ayırd edilməsi;

6.Yeniyetmələrin idrak fəallığı və özünüdərketmə prosesi arasındakı əlaqənin müəyyənləşdirilməsi;

7. Yeniyetmələrin idrak fəallığının koqnitiv xarakterinin aydınlaşdırılması;

8. Yeniyetmələrin idrak fəallığının yaradıcı xarakterinin təhlil edilməsi;

9. Yeniyetmələrin idraki fəallığnın artırılmasına kömək edən metodların və vasitələrini tapılması, idrak fəallığını zəifldədən amillərin müəyyənləşdirilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Tədqiqatda C.Brunerin, J.Piajenin, və L.Vıqotskinin idrak nəzəriyyələrinə, təfəkkür sahəsində aparılmış tədqiqatların nəticələrinə, müasir koqnitiv və şəxsiyyət nəzəriyyələrinə istinad edilmişdir.

Tədqiqatda Münsterberqin "Ədədlərin yerləşməsi" metodikasının modifikasiya edilmiş variantından, "Sarı–qırmızı lövhə" və "Kompas" testlərindən, "Maraqlar xəritəsi" metodikasından, məntiqi mühakimə qabiliyyətinin diaqnostikasından (Raven metodikası əsasında) istifadə edilmişdir. Tədqiqat Bakı şəhəri Yasamal rayonunun 20 və 153 saylı orta məktəblərinin V-IX siniflərində 200 şagirdin iştirakı ilə keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Bu tədqiqat işində əvvəlki tədqiqatlardan fərqli olaraq yeniyetmələrin idrak fəallığının psixoloji xüsusiyyətləri müəyyən edilmiş, onlarda idrak fəallığının dinamik inkişaf modeli yaradılmış, idrak fəallığının dinamikası və maraq dairəsinin istiqamətləri aydınlaşdırılmış, idrak fəallığının aralıq mərhələlərinin bütün yeniyetmələrdə eyni səviyyədə təzahür etmədiyi aşkarlanmışdır.

İlk dəfə olaraq bu işdə:

- Kiçik yeniyetmələrin böyük yeniyetmələrdən fərqli olaraq idrak fəallığının koqnitiv mahiyyət kəsb etməsi, tapşırıqlara kompleks yanaşmaları müəyyən edilmiş;
- Yaradıcı təhsil mühitində sinifdən-sinfə keçmə prosesində onların koqnitiv imkanlarının genişlənməsi müşahidə edilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- Yeniyetmələrin idrak fəallığı koqnitiv məzmuna malik proses olub, özündə müstəqillik, təşəbbüskarlıq, sistemlilik və ardıcıllıq komponentlərini birləşdirir.
- Yeniyetmələrin idrak fəallığının psixoloji modeli hazırlanmışdır. İdrak fəallığı yeniyetmənin dəyişən situasiyalarda öz imkanlarını aktuallaşdırmaq və problemi müstəqil həll etməklə potensiallarını gerçəkləşdirməkdə təzahür edir.
- Yeniyetmələrin idrak fəallığının intensivliyi onların fərdi göstəricilərindən asılı olaraq parodoksal vəziyyətlərdə özünü göstərir. Bir sıra şagirdlər ən çətin tapşırıqları həll edə bildikləri halda, asan tapşırıqlara ya mərkəzləşməyə maraq göstərmir, ya da onların həll yollarını bimir.
- Koqnitiv qabiliyyətlər üzrə aşağı nəticələr göstərən şagirdlərdə idrak fəallığının artırılması üçün onları müstəqil, yaradıcı fəaliyyətə yönəltmək kifayət etmir, onların maraqlarına uyğun düzgün yönəldilməsi və bu fəaliyyətin nəzarətdə saxlanılması tələb olunur.
- Yeniyetmələrin idrak fəallığının göstəricilərinin ümumi nəticələri onların bu sahədəki real imkanlarından yüksək ola bilər. Çünki fəaliyyət prosesində yaranan yeni ideyalar bu prosesin özündə belə yeni hərəkət elementləri, o da öz növbəsində yeni əməliyyat sistemini yaradır. Ona görə də yeniyetmələrin idrak fəaliyyətinin struktur elementləri çox zaman bütöv davranışa və ya hərəkətlərin cəminə uyğun gəlmir.

**Tədqiqatn nəzəri əhəmiyyət.** İdrak fəallığının artırılması təlim prosesinin effektivliyinin yüksəldilməsi ilə yanaşı, idrak proseslərinin inkişaf mexanizmlərinin müəyyənləşdirilməsinə, fəaliyyətin motivasiyasının dərk olunmasına şərait yaradır. Bu baxımdan tədqiqatın nəticələri ümumi psixologiyanı idrakı fəallığının artırılması haqqında yeni məlumatlarla zəngin-

ləşdirir, bu sahədə yeni konseptual elmi istiqamətlərin yaranmasına zəmin formalaşdırır.

**Tədqiqatin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən məktəb təcrübəsində, yeniyetmələrə psixoloji xidmət işində, onların təlim uğurlarının artırılmasına yönəldilmiş pedaqoji tədbirlərdə və peşəyönümündə istifadə oluna bilər. Bununla yanaşı əldə olunmuş nəticələr ümumi psixologiyanın, yaş və inkişaf psixologiyasının, o cümlədən seçmə fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.**Tədqiqatın nəticələri Bakı Dövlət Universitetinin Psixoloğiya kafedrasının seminarlarında və müxtəlif konfranslarda müzakirə edilmişdir. Eyni zamanda dissertasiya işinin əsas nəticələri müəllifin müvafiq məqalə və tezislərində öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsədi və vəzifələri, obyekti, predmeti, fərziyyəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan əsas müddəalar şərh olunur.

Dissertasiyanın **«Yeniyetmələrdə idrak fəallığının inkişafi probleminin nəzəri məsələləri»** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir.

Dissertasiyanın **«İdrak və onun fəallığı haqqında fəlsəfi-psixoloji nəzəriyyələr»** adlanan I fəslinin birinci yarımfəslində idrak fəallığı mürəkkəb psixoloji proses kimi təhlil olunur. Qeyd olunur ki, idrak fəallığı nəticəsində şəxsiyyət uğurlar əldə edir, özünün imkanlarını, cəmiyyətdəki yerini müəyyənləşdirir. Əgər şagirdin idrak fəallığı sayəsində əldə etdiyi nəticələr onun sosial inkişafına zəmin yaratmırsa, onun daxili imkanlarına inamı artmır, əksinə özünəinamsızlıq yaradır. Bu halda həm valideynlər, həm də müəllimlər müxtəlif xarakterli və ciddi çətinliklərlə üz-üzə qalırlar.

İdrakın ən mühüm proseslərindən biri - anlamadır. Ə.S.Bayramova görə anlama - "ətraf aləmin cisim və hadisələri arasındakı əlaqə və münasibətlərin inikasından ibarətdir. Anlama cisim və hadisələrin düzgün qavranılmasından, təhrifə yol verilməməsindən asılıdır. Lakin onu qavrayış prosesi ilə eyniləşdirmək olmaz". Anlama, məlum olduğu kimi, həqiqətin öyrənilməsinə və dərk olunmasına yönəlmiş psixoloji aktdır. Bu baxımdan biliyin öyrənilməsinə yönəlmiş hər hansı fəaliyyət anlama ilə nəticələnmir. Ə.S.Bayramov idrakla bağlı komponentlərə şərh verərkən qeyd edir ki,

“biliyə yiyələnmə - anlamanın ilkin şərtidir. Biliyə yiyələnmə isə tədricən əmələ gəlir, həm də daha mütəşəkkil formada məhz təlim prosesində baş verir. Şagirdlər anlaşılması tələb edilən cisim və ya hadisəni özlərinə yaxşı məlum olan cisim və hadisələr kateqoriyasına aid etməyi bacardıqlari vaxt anlamanın daha yüksək mərhələsinə nail olurlar. Belə olduqda onlar qavradıqları cisim və hadisənin xüsusiyyətlərini, hətta müfəssəl surətdə anlamasalar belə, onun ümumi xassələrini yaxşı dərk edə bilirlər”.

M.Məhərrəmov idrak fəaliyyətini - fikri fəaliyyət kimi səciyyələndirir: “Müəyyən məqsədlə hər hansı bir cisim, hadisə haqqında fikirləşən zaman icra edilən əməliyyata – fikri fəaliyyət deyilir. Təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, sistemləşdirmə, təsnifat, mücərrədləşdirmə və konkretləşdirmə, fikri, yaxud əqli əməliyyatların bir - biri ilə sıx və qarşılıqlı vəhdət halında cərəyan edən əsas növləridir” . Bu izahda idrak fəaliyyəti - əqli fəaliyyətin tərkib hissəsi kimi götürülür. Deməli, idrakın fəallaşması məhz əqli proseslərin fəallaşması nəticəsində baş verəcəkdir. Fəallığın səmərəlılıyi onun nəticələrini kəmiyyət və keyfiyyəti ilə ölçülür.

L.S.Vıqotski əqli inkişaf səviyyəsini qiymətləndirmənin sadə yolu kimi bunu göstərir: “Uşağın əqli inkişafının tədqiqatlarında belə qəbul olunub ki, ağlın göstəricisi kimi yalnız onun özünün edə bildikləri götürülür. Biz uşağa müxtəlif tapşırıqlar, müxtəlif çətinlik dərəcəsində olan testlər veririk. O, hansı çətinlik dərəcəsini həll edə bilirsə, ağlını da onunla ölçürük”.

İnsanın fəallığı özünü bir neçə sahədə göstərir: dərketmə fəallığı, idrak fəallıq, sosial fəallıq, əmək fəallığı və s. Deməlı, idrak fəallığı - insanın ümumi fəallıq fenomeninin bir sahəsidir. İdrak fəallığı prosesində insan ağlının ən vacib xassələri iştirak edir. İdrakın fəallaşması dedikdə - insanın ətraf aləm reallıqlarına yalnız bioloji və sosial istiqamətlənməsi deyil, həm də bu reallıqların mahiyyətini dərk etmək üçün daxili və xarici imkanların birləşdirilməsi və iradi səy göstərilməsi başa düşülür.

Bütün bunlarla yanaşı qeyd olunur ki, idrak fəaliyyəti mürəkkəb quruluşa malikdir. İdrak fəaliyyətinin səmərəli qurulması üçün bir sıra komponentlərin səmərəli fəaliyyəti tələb olunur. Burada, həm idrakın təbii quruluşunu əmələ gətirən komponentlərin (qavrama, yadda saxlama, təfəkkür, təxəyyül, iradə, emosiyalar), qabiliyyətlər (dərketmə, anlama, mənimsəmə və s.), həm də sosial inkişaf prosesində formalaşmış şəxsiyyət keyfiyyətlərinin birgə işi mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyanın **«Yeniyetməlik dövründə idrak fəallığını şərtləndirən amillər »** adlanan I fəslinin II yarımfəslində qeyd olunur ki, insanlar özlərinin bioloji quruluşuna, eyni zamanda, beyin hüceyrələrinin mexanizmlərinə uyğun olaraq, ya məhsuldar, ya da qeyri-məhsuldar idrak fəaliyyəti göstə-

rirlər. Bunlarla yanaşı, idrak fəallığı hər bir fərdin şəxsi fəallığı və yaş xüsusiyyətləri ilə də şərtlənir. Yeniyetmələrin idrak fəallığını təmin etmək üçün təlim prosesində fəaliyyəti düzgün nizamlamaq, iradi iş nümayiş etdirmək, məhsuldar nəticələrə nail olmaq lazım gəlir. Bu yarımfəsildə qeyd olunur ki, yeniyetmələrin idrak fəallığı bir sıra amillərlə bağlıdır. Bu amillər birinci növbədə genetik mənşəlidir. Burada sinir sisteminin tipi (temperament), tələbatlar, hisslər, instinktlər və meyllər əsas amil kimi çıxış edir.

Yeniyetmələrin idrak fəallığını şərtləndirən komponentlərin heç biri ayrılıqda baş vermir. Onların ilkin assosiasiyaları bələdləşmə-axtarış fəaliyyətində özünü göstərir. Bələdləşmə-axtarış fəaliyyəti ətraf aləmdən informasiya əldə olunmasına yönəlmiş fəaliyyətdir. Belə fəaliyyətdə insan özünün daxili aləminin formalaşması ilə bağlı olan yeni xüsusiyyətlər, eləcə də siqnallarla hərəkət etmək imkanı əldə edir. Yeniyetməlik yaş dövrünün xüsusiyyətləri baxımından bələdləşmə-axtarış fəaliyyəti şagirdlərin fəallığının əsas komponentlərindən biri kimi özünü göstərir.

Dissertasiyanın **«Yeniyetmələrin şəxsiyyətinin inkişafında idrak fəallığının rolu»** adlanan II fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiyanın **«İdrak fəallığı yeniyetmələrin motivləşmiş fəaliyyətinin əsas xüsusiyyəti kimi»** adlanan I yarımfəslində yeniyetmənin şəxsiyyəti, onun motivasiyası və idrak fəallığının qarşılıqlı əlaqəsi öyrənilir, problemin tədqiqində şəxsiyyətin motivləşmiş fəaliyyətinin yüksək forması kimi onun idrak (dərketmə) fəallığı əsas götürülür. Bu yarımfəsildə idrak fəallığı motivləşmiş fəaliyyət kimi təhlil olunur və bu istiqmətdə aparılan tədqiqatlara münasibət bildirilir. Psixoloji ədəbiyyatlarda şəxsiyyətin motivasiya sahəsinin formalaşması onun subyektiv fəallığının əsas şərti kimi göstərilir. Bu yarımfəsildə yeniyetmələrin idrak fəallığının motivasiyasının inkişafı təfəkkürün imkanları ilə izah edilir. Əgər təfəkkür imkanları genişdirsə, yeniyetmədə özünüfəallaşdırma motivasiyası dinamik qaydada inkişaf edir. Burada idrak motivasiyasının inkişafına təsir göstərən digər mühüm amil yeniyetmənin təhsil aldığı məktəbin, sinfin, o cümlədən ailənin təhsilə olan münasibətidir.

Təhsilə olan münasibət son nəticədə özünü təhsil mühitində göstərir. Qeyd edilir ki, yeniyetmələrin idrak motivləri onların emosionallığından asılı olaraq həm siniflər üzrə, həm də ayrı-ayrı şagirdlərdə dəyişir. Bu dəyişmə daha çox yeniyetmələrin həmyaşıdlarla qarşılıqlı münasibətləri ilə bağlı olur. Bu amillər bir-birini tamamladıqda yeniyetmələrin idrak motivasiyası onların şəxsiyyəti ilə qarşılıqlı əlaqədə inkişaf edir.

Dissertasiyanın II fəslinin **«Yeniyetmələrin maraqları və idrak fəallığının qarşılıqlı əlaqəsi»** adlanan II yarımfəslində qeyd olunur ki, yeniyetmələrin idrak fəaliyyəti onların iştirakçısı olduqları tədris prosesində qurulur.

Tədris prosesində şagirdlərin fəallığı onların fənnə, müəllimə, bütövlükdə təlim situasiyasına marağı ilə şərtlənir. Təlim maraqları son nəticədə özünü idrak motivasiyasında və idrak maraqlarında göstərir. Bu problemlərin öyrənilməsi məqsədilə Bakı şəhəri Yasamal rayonunun 20 və 153 saylı orta məktəblərinin V-IX siniflərində 200 şagirdlə “Maraqlar xəritəsi” metodikası keçirilmişdir. Metodikanın nəticələri erkən yeniyetməlik 10-12 yaş (V-VII siniflər) və yetkin yeniyetməlik 13-15 yaş (VIII-IX siniflər) yaşları üzrə umiləşdirilmişdir. Həmin yaş dövrləri üzrə yeniyetmələrin maraq sahələri arasında fərqlərin olduğu aşkar edilmişdir. Bu fərqlər özünü V və VIII siniflər arasında daha aydın şəkildə göstərmişdir.

“Maraqlar xəritəsi” metodikasının V-VII siniflər üzrə göstəriciləri

Cədvəl 2.1.

| V-VII siniflər üzrə (100 şagird) | | | | | |
|---|---|---|---|---|---|
| Şkala nömrəsi | Sınanılanın maraq göstərdiyi fəaliyyət sahələri | Şag. sayı nəfərlə | Şkala nömrəsi | Sınanılanın maraq göstərdiyi fəaliyyət sahələri | Şag. sayı nəfərlə |
| 1. | Fizika | 7 | 13 | Geologiya | 9 |
| 2. | Riyaziyyat | 35 | 14 | Coğrafiya | 23 |
| 3. | Kimya | 8 | 15 | İctimai iş | 27 |
| 4. | Astronomiya | 11 | 16 | Hüquq | 25 |
| 5. | Biologiya | 21 | 17 | Nəqliyyat | 12 |
| 6. | Tibb | 14 | 18 | Pedaqogika | 8 |
| 7. | Kənd təsərrüfatı | 4 | 19 | Peşə ixtisasları | 7 |
| 8. | Meşə təsərrüfatı | 22 | 20 | Xidmət sahələri | 19 |
| 9. | Filologiya | 36 | 21 | Tikinti | 21 |
| 10. | Jurnalistika | 23 | 22 | Yüngül sənaye | 23 |
| 11. | Tarix | 31 | 23 | Texnika | 34 |
| 12. | İncəsənət | 37 | 24 | Elektrotexnika | 38 |

Cədvəl 2.1-in nəticələrinə görə, 10-12 yaşlı yeniyetmələrin ən çox üstünlük verdikləri fəaliyyət sahələri: incəsənət, filologiya, riyaziyyat, biologiya, jurnalistika, meşə təsərrüfatı, ictimai iş, hüquq, tikintidir. Onlar kənd təsərrüfatı, kimya, fizika, geologiya, peşə ixtisasları və pedaqogikaya az əhəmiyyət verirlər. Burada diqqət yetirməli olan başqa məsələlər də var. Məsələn, kənd təsərrüfatı sahəsinə tədqiqatda iştirak edən yeniyetmələrin 4 nəfəri müsbət münasibət bildirdiyi halda, meşə təsərrüfatına onların 22 nəfəri maraq göstərir. Qeyd edək ki, həmin yeniyetmələr əsasən 11-12 yaşında idilər. Bununla bağlı onlarla söhbətlər aparılarkən aydın oldu ki, həmin yeniyetmələr meşə təsərrüfatının mahiyyətinə (çətinliklərinə) o qədər də bələd deyillər.

Onları bu sahəyə cəlb edən başlıca amil meşəyə romantik münasibətdir. Xüsusilə, sorğunun şəhər məktəbində keçirildiyini nəzərə alsaq, yeniyetmələrin meşə haqqında daha çox vizual təəssüratlara malik olduqları aydınlaşır.

Tədqiqatda maraq doğuran digər məsələ fizika və kimya fənlərinə münasibətlə bağlıdır. Məlum olduğu kimi, V-VII siniflərdə həmin fənlərin tədrisinə yenicə başlanır (VII-VIII siniflərdə). Şagirdlər hələ onların hansısa ixtisas sahələri ilə bağlılığını tam dərk edə bilmirlər. Buna görə də həmin fənləri seçənlərin sayı az olmuşdur. Bu şagirdlərlə söhbətlər zamanı onların təbiət fənlərinə uşaqlıqdan maraq göstərdikləri aydın olmuşdur. Əlbəttə ki, burada yalnız sosial mühitin deyil, genetik amillərin təsirini də nəzərə almaq lazım gəlir.

“Maraqlar xəritəsi” metodikasının VIII-IX üzrə göstəriciləri

Cədvəl 2.2.

| VIII-IX siniflər siniflər üzrə (100 şagird) | | | | | |
|---|---|---|---|---|---|
| Şkala nömrəsi | Sınanılanın maraq göstərdiyi fəaliyyət sahələri | Şag. sayı nəfərlə | Şkala nömrəsi | Sınanılanın maraq göstərdiyi fəaliyyət sahələri | Şag. sayı nəfərlə |
| 1. | Fizika | 19 | 13. | Geologiya | 4 |
| 2. | Riyaziyyat | 37 | 14. | Coğrafiya | 21 |
| 3. | Kimya | 31 | 15. | İctimai iş | 17 |
| 4. | Astronomiya | 20 | 16. | Hüquq | 24 |
| 5. | Biologiya | 36 | 17. | Nəqliyyat | 5 |
| 6. | Tibb | 33 | 18. | Pedaqogika | 9 |
| 7. | Kənd təsərrüfatı | 14 | 19. | Fəhlə ixtisasları | 3 |
| 8. | Meşə təsərrüfatı | 13 | 20. | Xidmət sahələri | 6 |
| 9. | Filologiya | 35 | 21. | Tikinti | 17 |
| 10. | Jurnalistika | 24 | 22. | Yüngül sənaye | 18 |
| 11. | Tarix | 38 | 23. | Texnika | 23 |
| 12. | İncəsənət | 36 | 24. | Elektrotexnika | 25 |

Cədvəl 2.2-dən göründüyü kimi, VIII-IX siniflərdə yeniyetmələrin fəaliyyət sahələrinə marağı xeyli fərqlidir. Burada biz artıq “mənlik şüuru” formalaşmış, reallığa daha şüurlu münasibətlə üzləşirik. Belə ki, 13-15 yaşlı yeniyetmələr 10-12 yaşlı yeniyetmələrdən fərqli olaraq elmi əsaslara yiyələnməyə imkan verən fənlərə: fizika, kimya, biologiya, filologiya, tarix, riyaziyyat və coğrafiya fənninə məsuliyyətli yanaşırlar. Bir sıra peşə sahələri: xidmət sahələri, pedaqogika, geologiya onların ideallarına, maraqlarına uyğun gəlmir. Beləliklə, bu nəticəyə gələ bilərik ki, yeniyetməlik dövründə maraqların məzmunu dinamik qaydada dəyişir. Buna səbəb yeniyetmələrin

reallıq haqqındakı təsəvvürlərinin intensiv qaydada inkişafı ilə bağlıdır. V-VII siniflərdə onlar həyati reallıqlardan hələ uzaq olsalar da, VIII sinifdən başlayaraq (13 yaş) özlərinin gələcək həyatına ciddi yanaşır, maraqlarını sosial şəraitə müvafiq qaydada tənzimləməyə, inkişaf etdirməyə çalışırlar. Deməli, yeniyetmələrin maraqları yalnız onun özünün, ailənin sosial şəraitindən, dəyərlərindən deyil, həm də yaşadıqları ictimai mühitin ənənələrindən, mədəniyyətdən, nəhayət, iqtisadi vəziyyətdən asılı olur.

Dissertasiyanın II fəslinin **«Yeniyetmələrin özünüdərketməsində idrak fəallığının rolu»** adlanan III yarımfəslində qeyd olunur ki, yeniyetmələrin özünüdərketməsi onların: fiziki, emosional və sosial planda yaxın adamlarla, bütövlükdə cəmiyyətlə münasibətdə özünü qiymətləndirməyə meylli olmaları ilə digər yaş dövrlərindən fərqlənir. Onlar öz "Mən"inin imkanlarını aşkarlamaq üçün öz üzərində səylə çalışırlar. Artıq əvvəlki dövrdə istifadə etdiyi özünümüəyyənləşdirmə üsulları onlara yararsız, əhəmiyyətsiz və bəsit görünür. Yeni üsullar axtararaq idrak fəallığının daha mükəmməl, sistemli, yaşlılıq səviyyəsinə uyğun vasitələr, normalarla məmimsəməyə səy göstərirlər.

Yeniyetmələrin idrak fəallığına tələbatının müəyyənləşdirilməsi sorğusunun nəticələrinə görə V-VII, hətta, VIII siniflərdə də şagirdlər idrak fəallığına kifayət qədər məsuliyyətli yanaşa bilmirlər. Bu, onlar üçün ən çətin məsələlərdən hesab olunur. Bir qisim şagird idrak fəallığı və müəllimlər, valideynlər arasında paralellik aparırlar. Hesab edirlər ki, onların idrakını məhz əsasən müəllimlər, müəyyən qədər də valideynlər, hansısa köməklə, onlarda maraq oyatmaqla fəallaşdırmalıdırlar. Beləliklə, 50 nəfərin iştirak etdiyi sorğuda aşağıdakı nəticələr alınmışdır.

Yeniyetmələrdə idrak fəallığına tələbatın göstəriciləri

Cədvəl 2. 3

| Siniflər | Suallar üzrə variantlar | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | | | 2 | | | 3 | | | 4 | | | 5 | | | 6 | | | 7 | | |
| | a | b | c | a | b | c | a | b | c | A | b | c | a | b | c | a | b | c | a | b | c |
| V | 5 | 3 | 2 | - | 5 | 5 | 2 | 4 | 4 | - | 2 | 8 | - | 2 | 8 | 1 | 2 | 7 | 3 | 4 | 3 |
| VI | 4 | 4 | 2 | 1 | 4 | 5 | 2 | 3 | 5 | 1 | 3 | 7 | 1 | 2 | 7 | 2 | 2 | 6 | 4 | 4 | 2 |
| VII | 5 | 3 | 2 | 3 | 5 | 2 | 3 | 3 | 4 | 3 | 3 | 6 | 1 | 4 | 5 | 3 | 3 | 4 | 4 | 3 | 3 |
| V III | 6 | 3 | 1 | 5 | 3 | 2 | 3 | 5 | 2 | 2 | 4 | 4 | 3 | 2 | 5 | 5 | 3 | 2 | 3 | 5 | 2 |
| IX | 5 | 4 | 1 | 7 | 3 | 1 | 4 | 3 | 3 | 3 | 4 | 3 | 3 | 4 | 3 | 5 | 3 | 2 | 5 | 3 | 2 |
| cəmi | 25 | 17 | 8 | 11 | 20 | 15 | 14 | 18 | 18 | 9 | 16 | 28 | 8 | 14 | 28 | 16 | 13 | 21 | 19 | 19 | 12 |

Cədvəl 2.3-dən göründüyü kimi, V siniflərdə yeniyetmələr hansısa peşəni

seçdiklərini düşünürlər, lakin VI sinifdə tərəddüdlər başlayır. VIII sinifdə buna daha əminliklə yanaşırlar. IX sinif şagirdləri əsasən peşə sahəsini müəyyənləşdirmiş olurlar. Onların fənlərə marağı V-VI siniflərdə qeyri-müəyyən olsa da, IX sinifdə fənlərə məhz seçdikləri peşəyə görə maraq göstərirlər. Bütün siniflərdə şagirdlər, demək olar ki, fənlərdən aldıqları qiymətlərdən narazıdırlar. Yalnız 2-3 şagird bu barədə razılığını bildirir. Onların cavablarına görə, biliklər qiymətlərə adekvat deyil. Yəni, aldıqları qiymətlərdən daha çox bilirlər. Sayca buna ən çox VII sinif şagirdləri tərəfindən münasibət bildirilmişdir (3 nəfər). Bütün siniflər üzrə 9 nəfər qiymət və bilik arasında uyğunluq görür. Fənlər üzrə dərsliklərdən başqa, əlavə materiallardan mütəmadi istifadə edən yeniyetmələrin sayı da azlıq təşkil edir: istifadə edənlər–8 nəfər; lazım gəldikdə istifadə edənlər–14 nəfər; istifadə etməyənlər-28 nəfər. Biliklərini dərinləşdirmək üçün müstəqil axtarışlara, əlavə materiallar üzərində işləməyə özünü məcbur edənlərin sayı isə belədir: öz fəaliyyətini özü tənzimləyir, daim axtarış aparır-16 nəfər; lazım gəldikdə öz işini müstəqil qurur, əlavə materiallar axtarıb tapır – 13 nəfər; hesab edir ki, belə müstəqil fəallıq göstərmək onun üçün hələ tezdir - 21 nəfər. İdrak fəaliyyəti tələb edən tapşırıqlar üzərində mərkəzləşmə imkanlarını yeniyetmələr belə qiymətləndirirlər: nə qədər lazımdırsa o qədər mərkəzləşməyi bacarır-19 nəfər; lazım gəldikdə özünü məcbur etməyə çalışır-19 nəfər; buna o qədər də cəhd göstərmir- 21 nəfər.

Yeniyetmələrin özünüdərketməsi və idrak fəallığı arasındakı əlaqə ondan ibarətdir ki, onlar özləri üçün özünəməxsus tərzdə dünyanı qavramanın vahid xəritəsini hazırlamağa çalışırlar. Bu xəritədə bütün imkan, qabiliyyət, maraq, motiv, dəyər, qiymətləndirmə və münasibətlər sintez olunur. Özünü-eyniləşməyə nail olmağı bacarmamaq eyniləşmə böhranına və ya rol qarışıqlığına gətirib çıxrır. Belə hallarda yeniyetmələr təhsili davam etdirmək istəmir, müvafiq fənlərə maraq göstərmir, özlərini peşə seçiminə hazırlamırlar. Bu, özünü idrak fəaliyyəti sahəsindəki bacarıqsızlıqda aydın göstərir. İdrak fəallığı zəif olan yeniyetmələrdə, eyni zamanda özlərinin faydasızlığı, məqsədsizliyi, gərəksizliyi, mənasızlığı kimi hisslər yaranır. Özlərini həmyaşıdlardan və yaşlılardan təcrid etməyə çalışır, ruhdan düşür, mümkün qədər gec böyüməyi arzulayırlar. İdentikləşmə böhranında başqalarının onlarda görmək istədikləri sosial rollara qarşı düşmənçiliklə yanaşır, özünü-qiymətləndirmə və sosial qiymətləndirmələr arasında ziddiyətlər əmələ gəlir. Bütün bunlar, təbii olaraq idrak motivasiyasının inkişafına mane olur və idrak maraqları lazım olan istiqamətdə inkişaf etmir.

Dissertasiyanın «**Təlim prosesində yeniyetmələrin idrakının fəallaşdirilməsi şərtləri**» adlanan III fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiya-

nın « **Yeniyetmələrin idrak fəallığının yaradıcı xüsusiyyətləri** » adlanan III fəslinin I yarımfəslində qeyd olunur ki, yaradıcı fəaliyyətə başlayan hər bir insanda nəyi axtarması haqqında ideya olur. Ancaq bu ideya onun üçün hələ qaranlıq, qarmaqarışıq təsəvvürlər yığını kimidir. Yaradıcılıq prosesində bu təsəvvürlər aydınlaşır, əsas ideya tapılır və kəşf edilir. Bu zərurətdən irəli gələn və yaradıcılığın bütün sahələri üçün səciyyəvi olan bir qanun var: şüur və şüuraltı sahə ilə daha yaxşı əlaqə yarada bilən, hər iki sahənin yaradıcılıq potensialından yararlanan, özü üçün anlaşıqlı olan yeni ideyaları başqaları üçün anlaşıqlı, izaholunan, aydın və material baxımdan dərk olunan tərzdə təqdim edə bilən insan yaradıcı insandır.

Yeniyetmələrdə yaradıcılıq imkanlarının təhlili bunları deməyə əsas verir ki, onlar ontogenetik inkişaf prosesində sosiallaşaraq ictimai təcrübəni, eləcə də mədəniyyəti mənimsəyirlər. Sosiallaşma ikitərəfli prosesdir. O özündə, bir tərəfdən fərdin sosial mühitə daxil olması yolu ilə sosial təcrübəni mənimsəməsini, digər tərəfdən fərd tərəfindən sosial aləmə fəal qoşulmaqla sosial əlaqələr yaratmaq, bu əlaqələr zəminində özünü dərk etmək deməkdir. Deməli, yeniyetmələrdə yaradıcı idrakın formalaşması üçün münasib yaradıcı mühit, yaradıcı münasibətlər olmalıdır.

Dissertasiyanın **«Yeniyetmələrin idrak fəallığının koqnitiv xarakteri»** adlanan III fəslinin II yarımfəslində qeyd olunur ki, yeniyetmələrin koqnitiv və idrak fəallığı arasında asılılıqları öyrənmək üçün həm idrak, həm də koqnitiv modelləri nəzərdən keçirmək lazımdır. Yeniyetmələrin idrak fəallığının səmərəli qurulmasında koqnitiv quruluşun mühüm tərkib hissəsi olan perseptiv təcrübəsinin də əhəmiyyəti böyükdür. Çünki persepsiyanın xarakteri hissi qavrayış, təfəkkür və təxəyyül arasındakı münasibətləri aydınlaşdırmağa imkan verir. Sensor-perseptiv fəaliyyətdə müxtəlif analizatorlar iştirak edir. Məsələn, görmə qavrayışının strukturunun və dinamik proseslərinin tədqiqi ilə bağlı araşdırmaların nəticələrindən aydın olur ki, qravitasiya vertikallarına (şaquli xətt) münasibətdə insanın məkanda bələdləşməsi əsas etibarilə motor informasiyasına deyil, görməyə əsaslanır.

Yeniyetmələrin koqnitiv fəaliyyətinin əsas səciyyəvi xüsusiyyətlərindən biri də onlarda əqli fəaliyyətin fərdi üslubunun formalaşmasıdır. Yeniyetmələrin idrak fəaliyyəti onlarda öz idrakı üçün xas olan ayrıca bacarıqların formalaşması ilə bitmir. Onlar, həmçinin, əqli fəaliyyətdə fərdi üsluba sahib olurlar.

Yeniyetmələrin idrak fəallığının koqnitiv məzmunu öyrənmək məqsədilə metodika işlənib hazırlanmışdır. Bu metodika diaqnostik-öyrədici mahiyyət daşıyır. Burada şagirdlərə təqdim olunan materiallar onların özünüdərki, özünün idrak imkanlarını psixoloji ölçmə vasitəsi ilə öyrənilməsini, aşkar

edilmiş nöqsanların aradan qaldırılması üçün özünüfəallaşdırma yollarının müəyyənləşdirilməsini nəzərdə tutur.

Metodika Bakı şəhəri Yasamal rayonunun 20 və 153 saylı orta məktəblərinin V-VII siniflərində təhsil alan 100 şagirdə tətbiq olundu. Yeniyetmələrlə tədqiqata başlamazdan əvvəl izahat işi aparılmışdır. Metodikada kiçik yeniyetmələrin koqnitiv sahəsinin ölçülməsi üçün sadə nümunələr verilmişdir. Burada: diqqət, hafizə, təfəkkür və təxəyyülün diaqnostikası aparılır, nəticələr ümumiləşdirilərək V və VII siniflər üzrə korrelyasiya olunur.

Müxtəlif metodikalar üzrə kiçik yeniyetmələrin idrak fəallığının göstəriciləri

Cədvəl 3.1.

| S.s. | Metodikalar | İştirak edənlər ( 100 nəfər) | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | V s. ( 33 nəfər) | | | VI s.(33 nəfər) | | | VII s.(34 nəfər) | | |
| | | yux. | or. | aş. | yux. | or. | aş. | yux. | or. | aş. |
| 1. | "Diqqətli ol!" | 10 | 12 | 11 | 8 | 13 | 12 | 11 | 13 | 10 |
| 2. | "Sarı – qırmızı lövhə" | 9 | 12 | 12 | 9 | 13 | 11 | 12 | 15 | 7 |
| 3. | "Bax, yadda saxla!" | 11 | 11 | 11 | 12 | 11 | 9 | 14 | 9 | 10 |
| 4. | "Rəqəmləri yadda saxla!" | 8 | 10 | 15 | 10 | 10 | 13 | 13 | 11 | 10 |
| 5. | "Bax, ümumiləşdir!" | 13 | 11 | 9 | 14 | 12 | 7 | 15 | 12 | 7 |
| 6. | "Uyğunlaşdır!" | 8 | 9 | 14 | 9 | 11 | 13 | 13 | 11 | 10 |
| 7. | "Nədən- nə düzəltmək olar?" | 9 | 13 | 11 | 10 | 12 | 11 | 14 | 13 | 7 |
| 8. | "Müqayisə et!" | 8 | 9 | 16 | 10 | 11 | 12 | 15 | 11 | 6 |
| 9. | "Yarımçıq fiqurlar" | 9 | 11 | 13 | 10 | 12 | 11 | 13 | 13 | 7 |
| 10. | "Nömrələri tutuşdur!" | 7 | 10 | 13 | 9 | 10 | 14 | 12 | 13 | 8 |
| 11. | "Boş yerləri doldur!" | 10 | 9 | 14 | 11 | 11 | 11 | 14 | 10 | 10 |
| 12. | Verilmiş şəkillərə görə müvafiq sxem çək!" | 12 | 12 | 9 | 13 | 12 | 8 | 17 | 10 | 7 |

"Diqqətli ol" və "Sarı – qırmızı lövhə" test tapşırıqları üzrə nəticələr göstərmişdir ki, V sinif şagirdləri öz diqqətini verilmiş tapşırıq üzərində VI-VII sinf şagirdlərindən daha yaxşı mərkəzləşdirirlər. Diqqətin ixtiyari imkanları hər iki sinifdə yaş xüsusiyyətləri baxımından kifayət qədər inkişaf etmiş olsa da, altıncılar konkret tapşırıqlar üzrə beşincilərdən pis mərkəzləşirlər. Onlar bunu sadə tapşırıqlara marağın az olması ilə izah edirlər. Bu sahədəki göstəricilər yeddinci sinif şagirdlərində yenidən yüksəlir.

“Bax, yadda saxla!”, “Rəqəmləri yadda saxla!” metodları kiçik yeniyetmələrin obrazlı hafizəsinin bir sıra xüsusiyyətlərinin öyrənilməsinə imkan vermişdir. Belə ki, onların hafizəsi kiçik məktəblilərdən fərqli olaraq obyektlərin sensor əlamətlərinə deyil, yeniliyinə və məzmununa görə fəallaşır. Bununla belə, VI-VII sinif şagirdlərinin daha mürəkəb seçici hafizə imkanlarına malik olduqları müəyyən edilmişdir. Onlar hər iki tapşırıq üzrə beşincilərdən 15-17% yüksək nəticələr göstərmişlər.

Təfəkkür imkanlarının müəyyənləşdirilməsi məqsədilə tətbiq olunmuş: “Bax, ümumiləşdir!”, “Uyğunlaşdır!”, “Nədən - nə düzəltmək olar?”, “Müqayisə et!”, “Yarımçıq fiqurlar”, “Nömrələri tutuşdur!” metodikalarının nəticələri göstərmişdir ki, kiçik yeniyetmələrin təfəkkür əməliyyatları onların subyektiv maraqları ilə sıx bağlıdır. Xüsusilə altıncı siniflərdə bu amil özünü daha aydın şəkildə göstərir. Belə ki, şagirdlər ümumiləşdirmə əməliyyatı apararkən maraqlandıqları sahələr üzrə daha yüksək nəticələr göstərmişlər. Bu nəticələrə görə, onlar aşağıdakı sahələrə daha çox maraq göstərirlər: fiziki hadisələrə, texnologiyaya maraq, onları fərqləndirmə və izahetmə qabiliyyəti beşinci sinif şagirdlərində daha yüksək olmuşdur; altıncı və yeddinci sinif şagirdlərində birinci yerdə canlı və cansız təbiət, bədii illüstrasiyalar və həndəsi fiqurlarla əməliyyatlara marağın durduğu müəyyənləşdirilmişdir.

Bütövlükdə kiçik yeniyetmələrin idrak fəallığının tədqiqi nəticələri göstərdi ki, onların əqli fəaliyyəti koqnitiv mahiyyət kəsb edir. Belə ki, tapşırıqlara kompleks yanaşırlar: tapşırığa müstəqil qaydada mərkəzləşir, tapşırığın mahiyyəti üzrə müvafiq idrak prosesinin ixtiyari tərəflərini fəallaşdırır, iradi səy göstərir, komandasız olaraq tapşırığı sona çatdırırlar. Bu nəticələrdə V, VI və VII sinif şagirdlərinin idrak fəallığının inkişafında dinamika özünü göstərir. Sinifdən-sinfə keçdikcə onların koqnitiv imkanları genişlənir, lakin nəzərə almaq lazımdır ki, tədqiqatda kiçik məktəblilərin yaş xüsusiyyətləri nəzərə alınaraq onlara konkret tapşırıqlar verilmişdir. Halbuki, tədqiqatın əvvəlində bu nəticələrin daha yüksək olacağı gözlənilirdi.

Kiçik yeniyetmələrin idrak fəallığının inkişaf səviyyəsinin göstəriciləri

Cədvəl 3.2.

| 12 tapşırıq üzrə nəticələr | V sinif ( 33 nəfər) | | | VI sinif ( 33 nəfər) | | | VII sinif (34 nəfər) | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | yuxarı səviyyə | orta səviyyə | aşağı səviyyə | yuxarı səviyyə | orta səviyyə | aşağı səviyyə | yuxarı səviyyə | orta səviyyə | aşağı səviyyə |
| Rəqəmlə | 114 | 129 | 148 | 125 | 138 | 132 | 163 | 117 | 99 |
| Faizlə | 28 % | 51 % | 37 % | 32 % | 35 % | 33% | 40 % | 27 % | 24 % |

Qeyd edək ki, hər bir tapşırıq üzrə nəticələr: yuxarı, orta və aşağı

səviyyələrə bölünmüşdür.




Şək.3.3. V – VII siniflər üzrə idrak fəallığının
inkişaf səviyyəsinin korrelyasiyası

Apardığımız tədqiqata əsaslanaraq qeyd edə bilərik ki, yeniyetmələrin idrak fəallığı koqnitiv məzmuna malik olub özündə müstəqillik, təşəbbüskarlıq, sistemlilik, ardıcıllıq elementlərini birləşdirir. Bununla yanaşı, yeniyetmələrin idrak fəallığının inkişafı ideal qaydada getmir. Bəzi yaş mərhələlərində bu inkişaf irəli gedir, bəzilərində isə geri qalır. Bu ənənə şagirdlərin fərdi göstəricilərində də müəyyən edilmişdir. Bir sıra şagirdlər ən çətin tapşırıqları həll edə bildikləri halda, asan tapşırıqlara ya, mərkəzləşməyə maraq göstərmir, ya da onların həll yolunu bilmirlər.

Dissertasiyanın **«İnkişafetdirici təlim şəraitində yeniyetmələrin idrakının fəallaşdırılması yolları»** adlanan III fəslinin III yarımfəslində göstərilir ki, yeniyetmələrin idrak fəallığı onların öyrənmə marağından, bu maraq isə təlim fəaliyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Öyrənmədə iştirak edən, idrakın fəallaşmasını şərtləndirən psixi proseslər koqnitiv proseslər səviyyəsində assosiativ əlaqələr yaradır. Təlim psixologiyasında bu, psixi proseslərarası əlaqələrin qarşılıqlı müdaxiləsi (perseverasiyası) nəticəsində mümkün olur. Yeniyetmə üçün maraq doğuran, diqqətini cəlb edən hər hansı mövzu onun fəallaşmasına stimul yarada bilər. Əsas məsələ budur ki, yeniyetmənin mövzu üzrə daha dərinliklərə getməsi, axtardığı həqiqəti öyrənməyə nail olması üçün ona istiqamət vermək lazımdır. Bu zaman müəllim (valideyn) problemin mıərhələli həllinə şərait yaratmalı, onu həvəsləndirməli, obyektiv qiymətləndirməli, bir sözlə, yeniyetmə öyrənmə, tədqiqat prosesinin icraçısı deyil, təşkilatçısı (yaxud təçkilatçılarından biri)

olamlıdır. Belə bərabərhüqüqluluq şəraitində yeniyetmələr idrak fəallığına daha çox maraq göstərirlər. Təlim şəraitində yeniyetmələrin idrakının fəallaşmasını şərtləndirən amillər aşağıdakı sxemdə ümumiləşdirilmişdir.




Şək. 3.4. Yeniyetmələrin idrak fəallığının dinamik inkişaf modeli

Bu modeldə yeniyetmələrin idrak fəallığına onların yeni bilik əldə etməyə cəhd etməsi, yalnız tədrisə deyil, həm də həyatın özü və b. situasiyalarla bağlı olan problemləri uğurla həll etmək bacarığı kimi yanaşılır.

Yeniyetmələrin öz tələbatlarını, motiv və maraqlarını reallaşdırmaq üçün göstərdikləri idrak fəallığı onlarda hansısa yeni şəxsi keyfiyyətlərin aşkar edilməsi ilə nəticələnir. Bunlar daha çox iki istiqamətdə -fərdi-psixoloji və sosial münasibətlər sahəsində baş verir. Bu baxımdan yeniyetmələrin idrak fəallığına həm də onlarda "Mənlik şüuru" və "Mən-konsepsiya"nın,

bütövlükdə şəxsiyyətin formalaşmasının prioritet məsələsi kimi baxmaq olar.

Apardığımız tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

1. Tədqiqat göstərdi ki, şagirdin idrak fəallığı onun məktəbə getdiyi gündən başlanır, lakin yeniyetməlik dövründə bunun üçün daha real imkanlar yaranır. Belə ki, yeniyetməlikdə tədris fəaliyyəti üzrə fərdi üslub formalaşır, əlverişli nəticələr əldə etmək üçün vasitələr seçmək bacarıqları yaranır, bütün bunların qarşılıqlı əlaqəsi təmin olunur.

2. Yeniyetmələrin təlimində idrak fəallığı ilə onların şəxsiyyətinin inkişafı arasında bir sıra qanunauyğunluqlar vardır. Bu qanunauyğunluqlara aşağıdakıları aid etmək olar: öyrənmə və fəallaşma arasındakı əlaqə; idrak fəallığı şəraitində yeniyetmə şəxsiyyətinin formalaşması; idrak fəallığına təsir göstərən informasiyaların, onların işləınməsi və istifadəsi prosesinin yeniyetmələrin dünyagörüşünə təsiri və s.

3. Apardığımız eksperimentlər göstərdi ki, fəallığın yüksək səviyyəsi şagirdi dərketmə müstəqilliyinə doğru aparır. Bu, biliklər, bacarıqlar, müstəqil düşünmək, yeni situasiyaya istiqamətlənmək və onu tənzimləmək qabiliyyəti, yalnız qəbul etdiyi normalar deyil, onu əldə etməyin yollarını da dərindən anlamaq istəyi ilə xarakterizə olunur.

4. Yeniyetmələrin idrak fəallığının əsasında dərketmə təşəbbüskarlığı, tədris fəaliyyətinə maraq durur. Onun daha yüksək səviyyəsi yeniyetmələrin yaradıcı fəallığıdır. Yaradıcı fəallıq yalnız fəal axtarış deyil, həm də verilmiş tapşırığın yerinə yetirilməsi üçün təlim vasitələri ilə sərbəst əməliyyatlar aparmaqdır. Bu yeniyetmənin fəallığnın ən optimal mərhələsidir.

5. Yeniyetmələrin idrak fəaliyyəti öz təbiətinə görə yaradıcı prosesdir, çünki bu zaman onlar: planlaşdırma, məqsədqoyma, məzmunu aydınlaşdırma, əlverişli situasiya və səmərəli vasitələr seçmək, nəticələri obyektiv təhlil etmək bacarlıqlarından istifadə edirlər.

6. Aydın oldu ki, əlverişli təlim şəraiti yeniyetmələrin idrakını əhəmiyyətli dərəcədə fəallaşdırır. Onlarda müxtəlif fənlər üzrə differensial qaydada aparılan işlər digər sahələrdə də öz təsirini göstərir. Bu, yeniyetmələrin icra etdikləri tapşırıqlar üzrə özünəinamın artırılması, qərarvermə, nəticəçıxarma, potensialını gerçəkləşdirmə və yaradıcı fəaliyyət sayəsində mümkün olur.

7. Tədqiqat göstərdi ki, yeniyetmələrin idrak fəallığının inkişafı onun bütün dövrləri üçün ideal qaydada getmir. Bəzi yaş mərhələlərində bu inkişaf irəli gedir, bəzilərində isə geri qalır. Bu ənənə şagirdlərin fərdi göstəricilərində də müəyyən edilmişdir.

8. Yeniyetmənin tələbatları və motivləri idrak fəallığı prosesində onun hansı məqsədə yönəldiyini şərtləndirir. Bu da öz növbəsində onun yerinə yetirdiyi təlim tapşırıqlarnda və hərəkət vasitələrində gerçəkləşir. Ona görə

də təlimin nəticəsi yeniyetmənin idrak fəallığının psixoloji baxımdan qiymətləndirilməsi üçün əsas ölçü meyarı kimi götürülür.

9.Tədqiqatda idrak fəallığının dinamik inkişaf modelinin yaradılması yeniyetmələrdə ümumi fəallıq səviyyəsinin artırılmasına imkan verir və idrak fəallığının psixoloji qanunauyğunluqlarının dərk olunmasına zəmin formalaşdırır.Bu modeldə yeniyetmələrin idrak fəallığına onların yeni bilik əldə etməyə cəhd etməsi, yalnız tədrisə deyil, həm də həyatın özü və b. situasiyalarla bağlı olan problemləri uğurla həll etmək bacarığı kimi yanaşılır.

Hesab edirik ki, bu problemi tədris fəaliyyətinin optimal qaydada qurulması yeniyetmələrdə fənlərin öyrənilməsinə peşə motivasiyası yaratmaqla, mövzulara maraq yaratmaqla, idrakı fəallaşdırılmasına özünüdərketmənin özünügerçəkləşdirmənin mühüm vasitəsi olmasına əminlik yaratmaqla həll etmək mümkündür.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**


1. Yeniyetmələrin idrak fəaliyyətinin xüsusiyyətləri //Psixologiya jurnalı,Bakı ,2009, №2 ,s.105-110
2. Yeniyetmələrin idrak fəaliyyətinin xüsusiyyətləri və onun təlim-tərbiyə prosesində nəzərə alınması // Psixologiya jurnalı, Bakı ,2009, №3, s.131-139
3. Şagirdlərin idrak fəallığını şərtləndirən psixoloji amillər // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi xəbərləri, Bakı, 2010, №2, s.382-388
4. Психологическое содержание познаательной деятельности у подростков / Эпический текст: провлемы и перспективы изучения. Материалы III Международной научной конференции. Самара: 2010, с. 96-97
5. Творческий характер познавательной активности у подростков// Поиск Изденич, Казахстан, 2010, №3, с. 322-326,
6. Творческий характер познавательной активности у подростков // Вектор Науки, Тольятти, 2012, № 1 (8), с. 309-312
7. Проблема формирования творческих способностей у подростков в психологической литературе / Социально-психологические проблемы и исследования детства: ребенок в семье, институтах образования и группах сверстников. Материалы междунараднай научно-практической конференции. Пенза - Витебск – Москва: 2012, с. 73-77
8. Yeniyetmələrin idrakının fəallaşdırılması yolları // İlahiyyat Fakültəsinin Elmi məcmuəsi, Bakı, 2012, s. 207-215

*Шукуфа Иншаллах гызы Ханкишиева*

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ У ПОДРОСТКОВ

## РЕЗЮМЕ

Диссертационная работа посвящена одой из актуальных проблем нашего времени – изучению психологических особенностей развития познавательной активности у подростков. Современные исследования показывают, что рост познавательной деятельности имеет большое значение для интенсивного решения вопросов в нестандартных ситуациях, всестороннего осознания ситуации, окружающей реальности и себя, а также формирования различных навыков. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Первая глава диссертации называется **«Теоретические вопросы развития познавательной активности у подростков»** и состоит из двух параграфов. В этой главе анализируются философско-психологические теории познания и его активности. Благодаря познавательной активности личность достигает успеха, определяет свои возможности и место в обществе. Стимулирование активности школьников, выбор направления в соответствии с их способностями, продвижение от малых успехов к большим требуют системного подхода с учетом условий роста познания для каждого возраста (в т.ч. подросткового).

Вторая глава **«Роль познавательной активности в развитии личности подростков»** посвящена рассмотрению познавательной активности как основной особенности мотивированной деятельности, изучаются взаимовлияния личности, ее мотивации и познавательной активности. В решении проблемы за основу берется деятельность познания (осознания) как высшая форма мотивированной деятельности личности, при этом познавательная активность анализируется как мотивированная. Приводятся работы, проводимые в этом направлении.

В третьей главе **«Условия активации познания подростков в учебной деятельности»** анализируются творческие особенности познавательной деятельности подростков, а также результаты проведенного эксперимента. Познания подростков для реализации своих потребностей, мотивов, и интересов, открывают у них какие-то новые личные качества, но чаще всего в двух сферах: в личностно-психологической и сфере социальных отношений.

В заключение диссертации обобщаются выводы исследования. Познавательная активность подростков, обладая когнитивным содержанием, в себя элементы самостоятельности, инициативности, систематичности, последовательности. Развитие познавательной активности подростков не придерживается идеальных правил. В каком-то возрасте это развитие опережает другие, а в каком-то отстает. Это отражается и в личных показателях школьников, ряд которых, решая самые трудные задания, не проявляет интереса к более легким, или не знает путей их решения.

*Shukufa Inshallah Khankishiyeva*

# PSYCHOLOGICAL FEATURES OF DEVELOPMENT OF INFORMATIVE ACTIVITY AT TEENAGERS


## SUMMARY

Dissertational work is devoted to one of actual problems of modernity - to studying of psychological features of development of informative activity at teenagers. Modern researches show, that growth of informative activity is of great importance for the intensive decision of questions in non-standard situations, all-round comprehension of the situation surrounding realities and, and also formation of various skills. The dissertation consists of the introduction, three heads, the conclusion and the list of the used literature.

The 1st chapter of dissertation is called **«Theoretical questions of development of informative activity at teenagers»** and consists of two paragraphs. In this chapter philosopher-psychological theories of knowledge and its activity are analyzed. Thanks to informative activity the person achieves success, defines the possibilities and a place in a society. Stimulation of activity of schoolboys, a direction choice according to their abilities, advancement from small successes to the big demand the system approach taking into account conditions of growth of knowledge for each age (including teenage).

The 2nd chapter **«The role of informative activity in development of the person of teenagers»** is devoted consideration of informative activity as to the basic feature мотивированной to activity; interferences of the person, its motivation and informative activity are studied. In the problem decision activity of knowledge (comprehension) undertakes a basis as the higher form мотивированной activity of the person, thus informative activity is analyzed as мотивированная. The works spent in this direction are resulted**.**

In the 3rd chapter **«Conditions of activation of knowledge of teenagers in educational activity»** are analyzed creative features of informative activity of teenagers, and also results of the spent experiment. Knowledge of teenagers for realization of the requirements, motives, and interests, open at them any new personal qualities, but more often in two spheres: in privet-psychological and social relations sphere.

In conclusion of the dissertation research conclusions are generalized. Informative activity of teenagers, possessing the cognitive maintenance, consist in itself elements of independence, initiative, a system, sequence. Development of informative activity of teenagers does not adhere to ideal rules. This development advances others in any age, and in any lags behind. It is reflected and in personal indicators of the schoolboys which number, solving the most difficult tasks, does not show interest to easier, or does not know ways of their decision.